Scandens
Pharmaceutical Industries Ltd.

| INTRODUCTION | GİRİŞ |
|---|---|
| Scandens Pharmaceutical Industries Ltd LLC (hereinafter referred to as "**Scandens**" or "**Company**") is committed to delivering safe, effective, and high-quality healthcare products. Our company adheres to industry regulations to ensure the safety and efficacy of our products. | "Scandens Pharmaceutical Industries Ltd" MMC (bundan sonra "**Scandens**" və ya "**Şirkət**" təhlükəsiz, effektiv və yüksək keyfiyyətli səhiyyə məhsullarının çatdırılmasını öhdəsinə götürür. Şirkətimiz məhsullarımızın təhlükəsizliyini və səmərəliliyini təmin etmək məqsədilə sənaye üzrə normativ tələblərə əməl edir. |
| The Code of Conduct (hereinafter referred to as "**Code**") outlines our expectations for behavior, responsibilities, and best practices for all employees, partners, contractors, and stakeholders involved in our operations. | Etik Davranış Kodeksi (bundan sonra "**Kodeks**" fəaliyyətimizdə iştirak edən bütün əməkdaşlar, tərəfdaşlar, podratçılar və maraqlı şəxslər üçün davranış, məsuliyyət və ən yaxşı təcrübələrə dair gözləntilərimizi müəyyən edir. |
| **COMPLIANCE WITH REGULATORY STANDARDS** | **TƏNZİMLƏYİCİ STANDARTLARA UYĞUNLUQ** |
| Our activities must meet all applicable laws, guidelines, and regulatory requirements in the countries where Scandens operates, ensuring the safety, efficacy, and quality of our products. | Scandens-in fəaliyyət göstərdiyi ölkələrdəki bütün tətbiq olunan qanun, qayda və tənzimləyici tələblərə riayət edilməli, məhsullarımızın təhlükəsizliyi, səmərəliliyi və keyfiyyəti təmin edilməlidir. |
| Scandens prioritizes quality in all aspects, ensuring that our medicines and other healthcare-related products meet the | Scandens keyfiyyətə hərtərəfli üstünlük verir, dərmanlarımızın və digər səhiyyə məhsullarımızın dünya miqyasında xəstələr üçün ən yüksək təhlükəsizlik və |

| | |
|---|---|
| highest standards of safety and effectiveness for patients worldwide. | effektivlik standartlarına uyğunluğunu təmin edir. |
| **HEALTH, SAFETY, AND ENVIRONMENTAL STEWARDSHIP**<br><br>Scandens is committed to maintaining a safe and healthy working environment for all employees by strictly adhering to occupational health and safety regulations, providing regular training in safety procedures, and implementing proactive measures to prevent workplace accidents and injuries.<br><br>In terms of environmental responsibility, Scandens aims to minimize our environmental footprint by following sustainable development practices. The Company's policies focus on reducing waste and energy consumption, ensuring the responsible disposal of chemicals and other hazardous materials, and complying with all environmental regulations. Scandens actively works towards reducing pollution and improving environmental outcomes.<br>Scandens complies with applicable environmental laws and regulations and | **SAĞLAMLIQ, TƏHLÜKƏSİZLİK VƏ ƏTRAF MÜHİTİN MƏSULİYYƏTLİ İDARƏ OLUNMASI**<br><br>Scandens əmək sağlamlığı və təhlükəsizliyi ilə bağlı normativ tələblərə ciddi əməl etməklə, təhlükəsizlik prosedurları üzrə mütəmadi təlimlər təşkil etməklə və iş yerində qəzaların və xəsarətlərin qarşısının alınması üçün qabaqlayıcı tədbirlər həyata keçirməklə bütün əməkdaşlar üçün təhlükəsiz və sağlam iş mühitinin təmin olunmasına dair öhdəlik götürür.<br><br>Ətraf mühit məsuliyyəti baxımından, Scandens davamlı inkişaf təcrübələrinə əməl etməklə ətraf mühitə təsirimizi minimuma endirməyi hədəfləyir. Şirkətin siyasətləri tullantıların və enerji sərfiyyatının azaldılmasına, kimyəvi və digər təhlükəli maddələrin məsuliyyətlə utilizasiyasına və bütün ətraf mühitlə bağlı qaydalara riayət olunmasına yönəlmişdir. Scandens aktiv şəkildə çirklənmənin azaldılması və ekoloji göstəricilərin yaxşılaşdırılması istiqamətin-də fəaliyyət göstərir. |

| | |
|---|---|
| discloses our environmental efforts in accordance with applicable Company policies and procedures. | Scandens ətraf mühitlə bağlı tətbiq olunan qanun və qaydalara riayət edir və ətraf mühit üzrə gördüyümüz tədbirləri Şirkətin tətbiq etdiyi siyasət və prosedurlarına uyğun şəkildə açıqlayır. |
| **PROTECTING CONFIDENTIAL INFORMATION**<br><br>As employees and partners of Scandens, we are entrusted with sensitive and confidential information, including that of our clients, business partners, suppliers, and proprietary company data.<br><br>It is our responsibility to safeguard all confidential and proprietary information related to Scandens and our partners, whether it pertains to product formulations, business strategies, or any other sensitive data. Disclosure of such information is strictly prohibited unless authorized by Scandens, required by applicable laws and regulations, or necessary for compliance with industry standards and guidelines. | **KONFİDENSİAL MƏLUMATLARIN MÜHAFİZƏSİ**<br><br>Scandens-in əməkdaşları və tərəfdaşları kimi bizə müştərilərimizin, biznes tərəfdaşlarımızın, təchizatçılarımızın və şirkətə məxsus xüsusi məlumatlar da daxil olmaqla, həssas və konfidensial məlumatlar etibar olunur.<br><br>Scandens və tərəfdaşlarımıza məxsus bütün konfidensial və şirkətin xüsusi məlumatlarının - istər məhsul formulaları, istər biznes strategiyaları, istərsə də digər həssas məlumatların – qorunması bizim məsuliyyətimizdədir. Belə məlumatların açıqlanmasına yalnız Scandens-in icazəsi ilə, tətbiq olunan qanun və qaydalarla tələb olunduqda,, yaxud sənaye standartlarına və göstərişlərinə uyğunluğun təmin olunması məqsədilə icazə verilir, digər hallarda məlumatların açıqlanması qəti qadağandır. mə |
| **SOCIAL MEDIA CONDUCT** | **SOSİAL MEDİA KODEKSİ** |

Scandens
Pharmaceutical Industries Ltd.

| | |
|---|---|
| Sharing sensitive Company materials, such as standard operating procedures, customer databases, internal communications, financial records, business strategies, pricing structures, project documentation, employee data, legal documents, or proprietary software and tools, is strictly prohibited. Additionally, employees and partners must refrain from any online activity or behavior that could potentially harm Scandens' reputation. Social media engagement should reflect the professionalism and values of the organization at all times. The use of Scandens' logos, trademarks, or branding on personal profiles is not allowed unless expressly permitted.<br><br>Any instances of inappropriate use of social media or behavior that could negatively affect the Company's image should be promptly reported to management or the compliance team. | Standart fəaliyyət prosedurları, müştəri databazaları, daxili yazışmalar, maliyyə sənədləri, biznes strategiyaları, qiymət strukturları, layihə sənədləri, əməkdaşlara dair məlumatlar, hüquqi sənədlər və ya şirkətə məxsus proqram təminatı və alətləri kimi həssas materialların paylaşılması qəti qadağandır. Bundan əlavə, əməkdaşlar və tərəfdaşlar Scandens-in nüfuzuna xələl gətirə biləcək istənilən onlayn fəaliyyət və davranışdan çəkinməlidirlər. Sosial şəbəkələrdə iştirak daima təşkilatın peşəkarlığını və dəyərlərini əks etdirməlidir. Scandens-in loqosundan, ticarət nişanlarından və ya brend elementlərindən şəxsi profillərdə istifadə yalnız şirkətin aşkar icazəsi ilə mümkündür.<br><br>Sosial mediadan qeyri-münasib istifadə və ya Şirkətin imicinə mənfi təsir göstərə biləcək istənilən davranış halları dərhal rəhbərliyə və ya komplayens komandasına bildirilməlidir. |
| **PROFESSIONAL AND ETHICAL BEHAVIOR DURING ONLINE MEETINGS**<br><br>Professional standards must be maintained during all virtual meetings, just as in face- | **ONLAYN GÖRÜŞLƏRDƏ PEŞƏKAR VƏ ETİK DAVRANIŞ**<br><br>Bütün virtual görüşlər ərzində, eynilə üzbəüz qarşılıqlı münasibətlərdə olduğu kimi, peşəkar standartlar gözlənilməlidir. |

| | |
|---|---|
| to-face interactions. Cameras and microphones should be used appropriately, and participants are expected to follow the Company's cultural and conduct guidelines throughout. Backgrounds must be suitable for a professional environment, and personal appearance should reflect Scandens' standards of professionalism.<br><br>Participants are expected to join meetings on time, be well-prepared, and avoid multitasking during discussions. All efforts should be made to minimize background noise and other distractions to ensure a productive environment. Meetings may involve confidential information; therefore, recording or sharing content without prior authorization is strictly prohibited. Respectful and inclusive communication is expected at all times, with active listening and thoughtful contributions encouraged. | Kamera və mikrofonlardan düzgün istifadə edilməlidir və iştirakçılar görüş boyu Şirkətin mədəni və davranış qaydalarına əməl etməlidirlər. Arxa fonlar peşəkar mühitə uyğun olmalı və şəxsi görünüş Scandens-in peşəkarlıq standartlarını əks etdirməlidir.<br><br>İştirakçılardan görüşlərə vaxtında qoşulmaları, tam-hazırlıqlı olmaları və müzakirələr zamanı paralel fəaliyyətlərdən çəkinmələri gözlənilir. Məhsuldar mühitin təmin olunması məqsədilə fon səsləri və digər yayındırıcı amillərin minimuma endirilməsi üçün bütün səylər göstərilməlidir. Görüşlər konfidensial məlumatları ehtiva edə biləcəyindən, məzmunun əvvəlcədən icazə alınmadan qeydə alınması və ya paylaşılması qəti qadağandır. Bütün hallarda, aktiv dinləmənin və əhəmiyyətli töhfələrin təşviqi ilə, qarşılıqlı hörmətə əsaslanan və inklüziv ünsiyyət gözlənilir. |
| **EMAIL COMMUNICATION AND CORRESPONDENCE STANDARDS**<br><br>All email correspondence must reflect the Company's communication standards and corporate culture. Employees should carefully review recipient lists before sending messages and exercise caution | **E-POÇT DANIŞIQLARI VƏ YAZIŞMA STANDARTLARI**<br><br>Bütün e-poçt yazışmaları Şirkətin ünsiyyət standartlarını və korporativ mədəniyyətini əks etdirməlidir. Əməkdaşlar ismarıc göndərməzdən öncə alıcı siyahılarını diqqətlə yoxlamalı və |

Scandens Pharmaceutical Industries Ltd.

| | |
|---|---|
| when attaching and sharing files. Miscommunication or accidental data sharing due to oversight must be avoided.<br><br>Employees must ensure that all relevant individuals who are directly involved or affected by the topic of the email are appropriately included in the To or CC fields. | faylların əlavə olunması və paylaşılması zamanı ehtiyatlı davranmalıdırlar. Diqqətsizlik səbəbindən baş verə biləcək yanlış ünsiyyət və ya təsadüfi məlumat paylaşılmasının qarşısı alınmalıdır.<br><br>Əməkdaşlar e-poçtun mövzusu ilə birbaşa əlaqəsi olan və ya bu mövzuda maraqlı olan bütün şəxslərin "To" və ya "CC" hissəsində düzgün şəkildə göstərilməsini təmin etməlidirlər. |
| **INFORMATION TECHNOLOGY SECURITY**<br><br>To ensure the integrity and security of Scandens' systems and data, the use of unauthorized or unnecessary software is strictly prohibited. Access to internal servers, databases, and systems is restricted to authorized personnel only. Employees are responsible for safeguarding their login credentials, including passwords for devices and corporate email accounts. These credentials must not be shared with any third parties under any circumstances. | **İNFORMASİYA TEXNOLOGİYALARI TƏHLÜKƏSİZLİYİ**<br><br>Scandens-in sistemləri və məlumatlarının bütövlüyünü və təhlükəsizliyini təmin etmək məqsədilə, icazəsiz və ya zəruri olmayan proqram təminatının istifadəsi qəti qadağandır. Daxili serverlərə, databazalara və sistemlərə giriş yalnız səlahiyyətli şəxslərlə məhdudlaşdırılır. Əməkdaşlar cihaz şifrələri və korporativ e-poçt hesabları da daxil olmaqla öz giriş məlumatlarının qorunmasına görə məsuliyyət daşıyırlar. Bu məlumatlar heç bir halda üçüncü şəxslərlə paylaşılmamalıdır. |
| **RESPECT IN THE WORKPLACE**<br><br>All employees should respect their colleagues. Scandens will not allow any | **İŞ YERİNDƏ HÖRMƏT**<br><br>Bütün əməkdaşlar öz həmkarlarına hörmətlə yanaşmalıdırlar. Scandens heç |

| | |
|---|---|
| kind of discriminatory behavior, harassment, or victimization. Employees shall be given equal opportunities in all aspects of their work, from recruitment and performance evaluation to interpersonal relations. | bir formada ayrı-seçkilik, qısnama və ya haqsızlığın tətbiqinə yol vermir.. İşə qəbuldan tutmuş fəaliyyətin qiymətləndirilməsinə qədər bütün sahələrdə əməkdaşlara bərabər imkanlar təqdim olunur. |
| Scandens prohibits unlawful discrimination based on any characteristic protected by applicable law. These characteristics may include age, color, disability, employment status, ethnic origin, gender identity or expression, marital status, nationality, race, religion or belief, sex, sexual orientation, as determined by local legal standards. These principles of anti-harassment and antidiscrimination extend to our relationships with business partners. Scandens never uses discriminatory criteria in the selection or termination of business partners, nor unlawfully harass or discriminate against individuals who work for our business partners. | Scandens tətbiq olunan hüquqla qorunan istənilən xüsusiyyətə əsaslanan qanunsuz ayrı-seçkiliyi qadağan edir. Yerli hüquqi standartların nəzərdə tutduğu bu xüsusiyyətlərə yaş, rəng, əlillik, əmək statusu, etnik mənsubiyyət, cinsi kimlik və ya ifadəsi, ailə vəziyyəti, milliyət, irq, din və etiqad, cinsiyyət, cinsi orientasiya aid ola bilər. Bu qısnama və ayrı-seçkilik əleyhinə prinsiplər biznes tərəfdaşlarımızla münasibətlərimizə qədər uzanır. Scandens biznes tərəfdaşlarının seçimi və ya əməkdaşlığın dayandırılması zamanı heç vaxt ayrı-seçkilik meyarlarından istifadə etmir və tərəfdaşların əməkdaşlarına qarşı qanunsuz zorakılıq və ayrı-seçkilik hallarına yol verilmir. |
| **WHO SCANDENS WORKS FOR**<br>Scandens serves and collaborates with:<br>a) Patients and Healthcare Providers<br>b) Regulatory Bodies | **SCANDENS-İN ƏMƏKDAŞLIQ ETDİYİ TƏRƏFLƏR**<br>Scandens aşağıdakı şəxslər və qurumlara xidmət göstərir və əməkdaşlıq edir: |

| | |
|---|---|
| c) Business Partners<br>d) Suppliers and Contractors | a) Xəstələr və səhiyyə xidmətləri təminatçıları<br>b) Tənzimləyici orqanlar<br>c) Biznes tərəfdaşları<br>d) Təchizatçılar və podratçılar |
| **CONFLICT OF INTEREST**<br><br>All employees, managers, and partners of Scandens must avoid any situation where their personal, financial, or family interests conflict, or appear to conflict, with the interests of the Company. A conflict of interest may arise when an individual's private interests interfere with their responsibilities to Scandens or compromise their ability to make impartial business decisions in the best interests of the Company.<br><br>Situations that may give rise to a conflict of interest include, but are not limited to, outside employment or consulting arrangements, personal or family relationships with competitors, suppliers, or clients, and financial interests in companies that do business with or compete against Scandens.<br><br>To ensure ongoing compliance, every employee and manager is required to | **MARAQLARIN TOQQUŞMASI**<br><br>Scandens-in bütün əməkdaşları, rəhbərləri və tərəfdaşları şəxsi, maliyyə və ya ailə maraqlarının Şirkətin maraqları ilə ziddiyyət təşkil etdiyi və ya belə görünə biləcəyi hallardan çəkinməlidirlər. Maraqların toqquşması o zaman yaranır ki, şəxsin özəl maraqları Scandens qarşısındakı öhdəliklərinə müdaxilə edə və ya Şirkətin üstün maraqları naminə qərəzsiz biznes qərarları vermək imkanını itirməsinə səbəb ola bilər.<br><br>Maraqların toqquşmasına səbəb ola biləcək vəziyyətlərə xarici əmək fəaliyyəti və konsaltinq müqavilələri, rəqiblərlə, təchizatçılarla və ya müştərilərlə şəxsi və ailə münasibətləri və Scandens ilə əməkdaşlıq edən və ya rəqabət aparan şirkətlərdə maliyyə maraqları daxildir, lakin bunlarla məhdudlaşmır.<br><br>Davamlı uyğunluğun təmin olunması məqsədilə hər bir əməkdaş və rəhbər |

| | |
|---|---|
| complete and sign a Conflict of Interest Disclosure Form on a yearly basis.<br><br>Failure to disclose a conflict of interest may result in disciplinary action, up to and including termination of employment or contractual engagement. | şəxsin ildə bir dəfə Maraqların Toqquşması Bəyanatı Formunu doldurması və imzalaması tələb olunur.<br><br>Maraqların toqquşmasının açıqlanmaması intizam tədbirlərinə, hətta əmək və müqavilə münasibətlərinin dayandırılmasına səbəb ola bilər. |
| **TRAINING AND AWARENESS**<br><br>All employees must complete the Code of Conduct and compliance training on a yearly basis. This ensures continued awareness of ethical and regulatory responsibilities. Managers are responsible for ensuring that their team members understand and follow this Code and must lead by example, promoting a culture of integrity and accountability. | **TƏLİM VƏ MAARİFLƏNDİRMƏ**<br><br>Bütün əməkdaşlar hər il Etik Davranış Kodeksi və komplayens üzrə təlimləri tamamlamalıdır. Bu, etik prinsiplər və normativ öhdəliklər barədə davamlı maarifləndirməni təmin edir. Rəhbər şəxslər komanda üzvlərinin bu Kodeksi tam şəkildə başa düşmələrini və ona əməl etmələrini təmin etməkdən məsuldurlar. Onlar nümunəvi davranış göstərərək dürüstlük və hesabatlılıq mədəniyyətinin təşviqinə rəhbərlik etməlidirlər. |
| **REPORTING CONCERNS**<br><br>All employees, contractors, and stakeholders are encouraged to report any suspected violations of this Code, breaches of law, or unethical behavior.<br><br>Concerns may be reported through the following channels: | **NARAHATLIQLARIN BİLDİRİLMƏSİ**<br><br>Bütün əməkdaşlar, podratçılar və maraqlı şəxslər bu Kodeksin pozulması, qanunazidd hallar və qeyri-etik davranışlar barədə istənilən şübhələri bildirməyə təşviq olunurlar.<br><br>Narahatlıqlar aşağıdakı kanallar vasitəsilə bildirilməlidir: |

Scandens
Pharmaceutical Industries Ltd.

| | |
|---|---|
| a) Line managers or supervisors, for general operational concerns<br>b) Human Resources Department, for issues related to harassment or workplace behavior<br>c) Compliance Officer or, where not appointed, a designated senior member of management, for regulatory or legal issues<br><br>Reports may be submitted:<br>• In person<br>• Via email to: compliance@scandenspharma.com (monitored exclusively by the designated compliance lead)<br>• Using a physical drop-box, where applicable (collected weekly by the compliance team)<br><br>Scandens strictly prohibits retaliation against any individual who reports a concern in good faith. All reports will be investigated promptly, fairly, and with strict confidentiality. | a) Ümumi fəaliyyət məsələləri üzrə birbaşa rəhbər və ya nəzarətçi şəxslərə<br>b) Zorakılıq (qısnama) və ya iş yerində davranış məsələləri üzrə insan resursları departamentinə<br>c) Normativ və ya hüquqi məsələlər üzrə Komplayens üzrə məsul şəxsə və ya belə şəxs təyin olunmayıbsa, rəhbərliyin səlahiyyətli nümayəndəsinə<br>Bildirişlər təqdim oluna bilər:<br>• Şəxsən<br>• E-poçt vasitəsilə: compliance@scandenspharma.com (yalnız komplayens üzrə məsul şəxs tərəfindən nəzərdən keçirilir)<br>• Fiziki poçt qutusu vasitəsilə, əgər tətbiq olunursa (həftəlik olaraq komplayens komandası tərəfindən toplanılır)<br><br>Scandens vicdanla narahatlığını bildirən heç bir şəxsin qisas məqsədli hərəkətlərə məruz qalmasına yol vermir. Bütün şikayətlər operativ, obyektiv, və ciddi konfidensiallıq əsasında araşdırılacaqdır. |
| **ENFORCEMENT AND DISCIPLINARY ACTION** | **İCRA VƏ İNTİZAM TƏDBİRİ** |

| | |
|---|---|
| Violations of this Code may result in disciplinary action, including but not limited to verbal or written warnings, suspension, termination of employment, or legal proceedings. Every case will be evaluated fairly, and employees will have an opportunity to explain their actions before any decision is made. | Bu Kodeksin pozulması halları şifahi və yazılı xəbərdarlıq, vəzifədən müvəqqəti kənarlaşdırma, əmək müqaviləsinə xitam verilməsi hüquqi prosedurlar daxil olmaqla, lakin bununla məhdudlaşmamaqla intizam tədbirləri ilə nəticələnə bilər.Hər bir pozuntu faktı ədalətlə qiymətləndiriləcək və əməkdaşlara istənilən qərar qəbul olunmazdan əvvəl öz hərəkətlərini izah etmək imkanı veriləcəkdir. |
| **COMPLIANCE WITH THE CODE**<br><br>All employees and partners are expected to adhere to this Code. Violations should be reported to the compliance officer or through appropriate channels. Employees are encouraged to report concerns without fear of retaliation, and the Company is committed to protecting those who raise legitimate concerns. | **KODEKS İLƏ UYĞUNLUQ**<br><br>Bütün əməkdaşların və tərəfdaşların bu Kodeksin müddəalarına əməl etmələri gözlənilir. Pozuntular komplayens üzrə məsul şəxsə və ya uyğun kanallar vasitəsilə bildirilməlidir. Əməkdaşlar qisas qorxusu olmadan narahatlıqlarını bildirməyə təşviq olunurlar. Şirkət qanuni narahatlıqlarını ifadə edən şəxslərin qorunmasını öz öhdəliyinə götürür. |